AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

*Əlyazması hüququnda*

SAMİRƏ XALƏDDİN QIZI SOFİYEVA

# XX ƏSR AZƏRBAYCAN ROMANINDA MİLLİ XARAKTERİN BƏDİİ TƏCƏSSÜMÜ PROBLEMİ (1960-1980-CI ILLƏR)

**5716.01 – Azərbaycan ədəbiyyatı**

**Filologiya üzrə fəlsəfə doktoru
elmi dərəcəsi almaq üçün təqdim olunmuş
dissertasiyanın**

**A V T O R E F E R A T I**

**B A K I - 2015**

Dissertasiya Bakı Dövlət Universitetinin Müasir Azərbaycan ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər**: *filologiya üzrə elmlər doktoru, professor*
**Vaqif SULTANLI**
**(Vaqif Soltan oğlu VERDİYEV)**

**Rəsmi opponentlər:** *filologiya üzrə elmlər doktoru, professor*
**Nizaməddin Şəmsəddin oğlu ŞƏMSİZADƏ**

*filologiya üzrə elmlər doktoru, professor*
**Bədirxan Balaca oğlu ƏHMƏDOV**

**Aparıcı müəssisə: Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrası**

Müdafiə «_29___» _05__ 2015-ci il saat «___»-də Bakı Dövlət Universiteti nəzdində filologiya üzrə elmlər doktoru və fəlsəfə doktoru dissertasiyalarının müdafiəsini keçirən D.02.181 Dissertasiya Şurasının iclasında olacaqdır.

Ünvan: AZ 1148, Bakı, Z.Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, əsas bina, II mərtəbə, Videokonfrans otağı.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat «___» ____________ 2015-cü ildə göndərilmişdir.

**D.02.181 Dissertasiya Şurasının**
**elmi katibi, filologiya üzrə**
**elmlər doktoru, professor: T.H.HÜSEYNOV**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı**. XX əsr Azərbaycan romanında milli xarakterin bədii təcəssümü (1960-1980-ci illər) probleminin müstəqil tədqiqat obyektinə çevrilməsi çağdaş ədəbiyyatşünaslığın və ədəbi tənqidin qarşısında duran ən mühüm vəzifələrdən biridir. Çünki Azərbaycan nəsrinin təkamül salnaməsinə bir sıra bənzərsiz əsərlər vermiş olan bu dövrdə roman janrı ədəbi tənqid tərəfindən bu və ya digər dərəcədə işıqlandırılsa da, indiyədək milli xarakterin bədii təcəssümü problem olaraq sistemli şəkildə öyrənilməmişdir. Bu isə şübhəsiz ki, ədəbi tənqidin çağdaş nəsrimizə, xüsusilə roman janrına həsr olunmuş tədqiqatlarında müəyyən boşluğun yaranmasına gətirib çıxarmışdır.

Mövzunun aktuallığını şərtləndirən amillərdən biri də XX əsr Azərbaycan romanında milli xarakterin bədii təcəssümü (1960-1980-ci illər) probleminin sovet dövrü Azərbaycan ədəbi tənqidi və ədəbiyyatşünaslığı tərəfindən qərəzli, birtərəfli şəkildə dəyərləndirilməsidir. Belə ki, öz yaradıcılığında mənəvi dəyərlərin, o cümlədən milli xarakterin bədii əksinə geniş yer verdiyi üçün İsmayıl Şıxlı, İlyas Əfəndiyev, Fərman Kərimzadə, Əzizə Cəfərzadə, İsa Hüseynov, Çingiz Hüseynov, Anar, Əlisa Nicat, Mövlud Süleymanlı və digər yazıçılar bir çox məqamlarda qərəzli, haqsız tənqidlərə məruz qalmış, əsərləri haqqında qeyri-obyektiv fikir və mülahizələr söylənmişdir. Bu gün 1960-1980-ci illər Azərbaycan romanında milli xarakterin bədii təhlili fonunda həmin qeyri-obyektiv, yanlış fikir və mülahizələrin rədd və inkar olunması tədqiqatın aktuallığını təmin edən cəhətlərdəndir.

Azərbaycan romanında milli xarakterin təcəssümü daha çox tarixi mövzularda gerçəkləşdiyi üçün yazılan əsərlərdə sovet siyasi rejiminə qarşı etiraz ruhu bu və ya digər formada özünü göstərməkdədir. Bəhs olunan əsərlərin milli təfəkkür işığında yenidən dəyərləndirilməsi, təhlil və tədqiq olunması həmin məqamların üzə çıxarılmasına imkan verəcəkdir.

Həmçinin 1960-1980-ci illər Azərbaycan romanında milli xarakterin təcəssümü məsələsinin öyrənilməsi çağdaş ədəbiyyatın diqqət yetirdiyi mənəvi-əxlaqi dəyərlərin üzə çıxarılması baxımından da aktuallıq kəsb etməkdədir.

**Tədqiqatın məqsəd və vəzifələri**. XX əsr Azərbaycan romanında milli xarakterin bədii təcəssümü (1960-1980-ci illər) probleminin müstəqil tədqiqat obyektinə çevrilməsi çağdaş ədəbiyyatşünaslığın və ədəbi tənqidin qarşısında duran ən mühüm vəzifələrdən biridir. Çünki Azərbaycan nəsrinin təkamül salnaməsinə bir sıra bənzərsiz əsərlər vermiş olan bu dövrdə roman janrı ədəbi tənqid tərəfindən bu və ya digər dərəcədə işıqlandırılsa da, indiyədək milli xarakterin bədii təcəssümü problem olaraq sistemli şəkildə öyrənilməmişdir. Bu isə şübhəsiz ki, ədəbi tənqidin çağdaş nəsrimizə, xüsusilə roman janrına həsr olunmuş tədqiqatlarında müəyyən boşluğun yaranmasına gətirib çıxarmışdır. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə

yetirilməsi ön plana çəkilmişdir:

– 1960-1980-ci illər romanının milli xarakter yaradıcılığı baxımından elmi-nəzəri təhlil süzgəcindən keçirilməsi;

– Bəhs olunan dövrün romanlarını mövzu və janrın poetikası baxımından milli xarakter yaradılışı prosesinə təsirinin müəyyənləşdirilməsi;

– Roman janrının milli xarakter yaradılışı kontekstinə təkamülünün xronoloji ardıcıllıqla izlənilməsi;

– Ayrı-ayrı romanlarda milli xarakter yaradılışının yazıçı fərdiyyətindən qaynaqlanan xüsusiyyətlərinin aşkarlanması;

– Milli xarakter yaradılışı fonunda üslub xüsusiyyətlərinin müəyyənləşdirilməsi;

– Azərbaycan nəsrinin ümumi inkişafı kontekstində romanın milli xarakter yaradılışı ilə bağlı bədii imkanlarının üzə çıxarılması;

– Romanın təhlili fonunda milli xarakter yaradılışının tarixi və müasir kontekstdə dəyərləndirilməsi;

– Tədqiq olunan dövrdə milli xarakter yaradılışı prosesinə təsir edən ideoloji stereotiplərin təzahür formalarının səciyyələndirilməsi;

– Tarixi və müasir mövzulu romanlarda milli xarakter yaradılışının fərqli təzahürlərinin izlənilməsi.

**Mövzunun tədqiqi tarixi**. Azərbaycan ədəbiyyatşünaslığında 1960-1980-ci illər romanında milli xarakter problemi bu və ya digər şəkildə təhlil obyektinə çevrilmişdir. M.Dadaşzadə, B.Nəbiyev, Y.Axundov, Y.Qarayev, Q.Qasımzadə, Q.Xəlilov, A.Hüseynov, N.Cəfərov və digər tədqiqatçıların araşdırmalarında milli xarakter problemi ilə bağlı müəyyən mülahizələrə təsadüf olunmaqdadır.

A.Hüseynovun «Müxtəlifliyin birliyi» monoqrafiyasında bədii ədəbiyyatda milliliklə beynəlmiləlliyin dialektik vəhdəti kontekstində milli xarakter məsələsinə toxunulmuşdur.[1] Tənqidçinin Azərbaycan nəsrinə həsr olunmuş digər tədqiqatlarında da yeri gəldikcə milli xarakter məsələsi ilə bağlı fikir və mülahizələr söylənilmişdir.[2]

Q.Qasımzadənin «Ədəbiyyatda millilik və beynəlmiləllik» adlı monoqrafiq tədqiqatında milli xarakter problemi əhatəli şəkildə araşdırılmışdır.[3] Müəyyən ideoloji stereotiplərin təsiri duyulsa da, bütövlükdə

---

[1] Hüseynov A. Müxtəlifliyin birliyi (Sovet ədəbiyyatında milliliklə beynəlmiləlliyin dialektik vəhdəti). Bakı: Yazıçı, 1983.

[2] Hüseynov A. Nəsr və zaman. Bakı: Yazıçı, 1980; Hüseynov A. Nəsrimiz və keçmişimiz (I məqalə) // Azərbaycan, 1982, № 9, s. 108–112; Hüseynov A. Nəsrimiz və keçmişimiz (II məqalə) // Azərbaycan, 1982, № 10, s. 174–189; Hüseynov A. Sənət meyarı. Bakı: Yazıçı, 1986.

[3] Qasımzadə Q. Ədəbiyyatda millilik və beynəlmiləllik. Bakı: Elm, 1982.

bu tədqiqat əsəri problemin bəzi aspektlərinə aydınlıq gətirilməsi baxımından maraq doğurur.

1960-1980-ci illərdə yaranmış ayrı-ayrı romanlar haqqında yazılan resenziya, rəy və müxtəlif səpkili tədqiqatlarda yeri gəldikcə, milli xarakter problemi ilə bağlı fikir və mülahizələr irəli sürülmüşdür.

Bundan əlavə, iyirminci yüzilin nəsrinə, xüsusilə Azərbaycan tarixi roman janrına həsr olunmuş bəzi tədqiqatlarda milli xarakter yaradılışı bu və ya digər şəkildə araşdırılmışdır.

Çağdaş Azərbaycan nasirlərinin həyat və yaradıcılıq yoluna həsr olunmuş monoqrafik tədqiqatlarda yeri gəldikcə milli xarakter probleminə də toxunulmuşdur. Araşdırmaya cəlb olunan dövrün ədəbi prosesinə həsr olunmuş müxtəlif səpkili araşdırmalarda da milli xarakterin bədii nəsrdə təcəssümü məsələlərinə müəyyən qədər yer verilmişdir. Son illərdə müdafiə olunmuş bəzi dissertasiyalarda müasir Azərbaycan nəsrində milli xarakter probleminin bu və ya digər aspektlərinə münasibət bildirilmişdir.

Lakin bütün bunlarla yanaşı, qeyd etmək lazımdır ki, 1960-1980-ci illər Azərbaycan romanında milli xarakter problemi indiyədək sistemli, monoqrafik şəkildə araşdırılmamışdır. Müdafiəyə təqdim olunan dissertasiya məhz bu zərurətdən doğmuşdur.

**Tədqiqatın obyekti**. Dissertasiyanın əsas obyektini 1960-1980-ci illərdə roman janrında yaranmış ədəbi örnəklər təşkil etməkdədir. Tədqiqatda Mirzə İbrahimovun «Pərvanə», İsmayıl Şıxlının «Dəli Kür», İlyas Əfəndiyevin «Körpüsalanlar», «Dağlar arxasında üç dost», «Sarıköynəklə Valehin nağılı», «Geriyə baxma, qoca», İsa Hüseynovun (Muğanna) «Məhşər», «İdeal», Əzizə Cəfərzadənin «Aləmdə səsim var mənim», «Vətənə qayıt», «Yad et məni», «Sabir», «Bakı-1501», Fərman Kərimzadənin «Xudafərin körpüsü», «Çaldıran döyüşü», Çingiz Hüseynovun «Məhəmməd, Məmməd, Məmiş», «Fətəli fəthi», Anarın «Beşmərtəbəli evin altıncı mərtəbəsi», Sabir Əhmədlinin «Toğana», Elçinin «Mahmud və Məryəm», Əlisa Nicatın «Qızılbaşlar», «Gəncəli müdrik», Sabir Azərinin «Dalanda», Fərman Eyvazlının «Qaçaq Kərəm», Cəlal Bəgüşadın «Bozatın belində», «Siyrilmiş qılınc», Mövlud Süleymanlının «Köç» kimi romanları milli xarakter yaradılışı fonunda bu və ya digər şəkildə təhlil və tədqiqini tapmışdır. Dissertasiyada həmçinin ayrı-ayrı tənqidçi və ədəbiyyatşünasların Azərbaycan romanı ilə əlaqədar araşdırmaları, fikir və mülahizələri təhlil obyektinə çevrilmişdir. Təhlil prosesində yeri gəldikcə müəlliflərin müraciət etdiyi mənbə və məxəzlərdən, habelə ədəbiyyatın və mədəniyyətin müxtəlif problemlərinə həsr olunmuş tədqiqatlarından da bəhrələnilmişdir.

**Tədqiqatın elmi-metodoloji əsası**. Dissertasiya işi əsas etibarilə tarixi-müqayisəli metodun prinsipləri əsasında yazılmışdır. Mövzunun araşdırılması zamanı müasir tənqid və ədəbiyyatşünaslığın elmi-nəzəri müddəalarından, dünya və Azərbaycan ədəbiyyatşünaslığına dair ən mühüm tədqiqatların nəticələ-

rindən bəhrələnilmişdir.

**Tədqiqatın elmi yeniliyi**. Dissertasiya işinin elmi yeniliyi onun bu sahədə ilk tədqiqat əsəri olması ilə bağlıdır. İlk dəfə olaraq XX əsr Azərbaycan romanında milli xarakterin bədii təcəssümü (1960-1980-ci illər) problemi müstəqil şəkildə təhlil olunmuş, janrın təkamülü bu problem kontekstində dəyərləndirilmişdir.

Dissertasiya işində 1960-1980-ci illərdə Azərbaycan ədəbiyyatında roman janrında yaranmış əsərlər milli xarakter yaradılışına görə sistemli təhlilə çəkilmişdir. Bəhs olunan dövrün konkret problem baxımından dəyərləndirilməsi janrın bu kontekstdə təkamülünü izləməyə imkan vermişdir. Bu amil də dissertasiyanın elmi yeniliyini səciyyələndirən cəhətlərdən biri kimi diqqəti çəkməkdədir.

Dissertasiyada Azərbaycan romanlarında milli xarakterin özünəməxsus cəhətlərinin aşkarlanması tədqiqatın elmi yeniliyini şərtləndirən amillərdəndir. Belə ki, ilk dəfə olaraq Azərbaycan romanı bəlli bir zaman kəsiyində milli xarakter yaradılışı kontekstində təhlil olunmuş, bu isə dövrün özünəməxsus, spesifik xüsusiyyətlərini izləməyə imkan vermişdir.

Tədqiqat işində 1960-1980-ci illər romanı Azərbaycan ədəbiyyatı kontekstində dəyərləndirilmiş, milli xarakter yaradılışı problemlərinə həsr olunmuş tədqiqatlara bu və ya digər şəkildə münasibət bildirilmişdir.

**İşin nəzəri-praktiki əhəmiyyəti**. Dissertasiya işi bu mövzuda yazılmış ilk tədqiqat əsəri kimi nəzəri-praktik əhəmiyyətə malikdir. Onun nəticələrindən ali məktəblərin filologiya fakültələrində ümumi və xüsusi kursların tədrisində yardımçı vəsait kimi istifadə oluna bilər.

Araşdırma təhlil istiqamətləri, nəzəri yanaşma və araşdırma formulları baxımından sonrakı dövrün tədqiqatları üçün elmi-nəzəri əhəmiyyət daşımaqdadır. Dissertasiya işi həmçinin Azərbaycan nəsrinin müasir mərhələsini araşdıran tədqiqatçılar üçün mənbə rolunu oynaya bilər. XX əsr Azərbaycan ədəbiyyatına aid dərslik və dərs vəsaitləri, habelə monoqrafik araşdırmaların yazılışında dissertasiyanın müddəalarına istinad oluna bilər. Tədqiqat işindən yenidən yazılması zəruri olan Azərbaycan ədəbiyyatı tarixi üçün də istinad mənbələrindən biri kimi bəhrələnilə bilər.

**Dissertasiyanın aprobasiyası**. Dissertasiya işi Ədəbiyyat üzrə Əlaqələndirmə Şurasında qeydiyyatdan keçmiş, Bakı Dövlət Universitetinin Müasir Azərbaycan ədəbiyyatı kafedrasında hazırlanaraq yerinə yetirilmişdir. Tədqiqatın əsas müddəaları «Filologiya məsələləri», «Elmi axtarışlar» toplularında, «Dil və ədəbiyyat», «Mütərcim», «Mədəniyyət dünyası» dərgilərində çap olunan məqalələrdə, müxtəlif konfranslarda oxunmuş məruzələrdə, habelə ayrıca monoqrafik tədqiqatda əksini tapmışdır.

**Dissertasiyanın quruluşu**. Dissertasiya giriş, iki fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

«Giriş»də araşdırılan mövzunun aktuallığı, elmi yeniliyi, məqsəd və vəzifələri, tədqiq tarixi, obyekti, işin praktik əhəmiyyəti, nəzəri-metodoloji əsasları, aprobasiyası və digər məsələlər haqqında qısa, yığcam şəkildə danışılmışdır.

«**Tarixi mövzu və milli xarakter problemi**» adlanan I fəsildə 1960-1980-ci illər romanı milli xarakter yaradıcılığı kontekstində araşdırılmış, təhlilə cəlb edilən bədii örnəklər timsalında problemin ayrı-ayrı istiqamətləri izlənilmişdir.

Dissertasiyanın I fəslinin birinci yarımfəsli «**Milli xarakter tarixi-ictimai proses kontekstində**» adlanır. Araşdırmaya cəlb olunan dövrün romanlarında milli xarakterin bədii təcəssümü bir çox məqamlarda dövrün tarixi-ictimai proseslərinin təsviri kontekstində gerçəkləşdirilməkdədir. Başqa sözlə, milli xarakterin yaradılması təsvir olunan dövrün ictimai-siyasi kontrastları ilə müşayiət olunur.

İsmayıl Şıxlının «Dəli Kür» romanı milli xarakterin özünəməxsus, bənzərsiz şəkildə təcəssüm tapdığı bədii örnəklər içərisində xüsusi yerlərdən birini tutur. Ədəbi tənqid və ədəbiyyatşünaslıqda, bütövlükdə nəzəri-estetik fikirdə milli xarakter problemi İsmayıl Şıxlının «Dəli Kür» romanının yaranmasından sonra işləklik qazanmışdır.

«Dəli Kür» romanında İsmayıl Şıxlı milli xarakterin bir sıra ciddi örnəklərini yaratmışdır. Lakin bunların içərisində daha çox diqqət cəlb edəni Cahandar ağadır. Yazıçı bu obrazın timsalında Azərbaycan xalqının mənəvi-əxlaqi dəyərlərini sözün həqiqi mənasında xarakterizə etmiş, yaratmış olduğu bu təkrarsız xarakter vasitəsilə babalarımıza məxsus mərdlik, əyilməzlik, qürur, namus-qeyrət, kişilik, əxlaqi dəyərlərə sədaqət və s. kimi mental keyfiyyətləri ümumiləşdirməyə çalışmış, bu mental keyfiyyətləri süni şəkildə obrazın daxili dünyasına «yükləməmiş», öz qəhrəmanının dolğun portretini yaratmaqla öz məqsədinə nail olmuşdur. Cahandar ağanın xarakterində diqqət çəkən məqamlardan biri onun keçmişə, adət-ənənəyə və əxlaq qanunlarına bağlılığıdır. Onun keçmişə bağlılığı ifrat dərəcədə mühafizəkar olmasından qaynaqlanmır. Bu bağlılığın arxasında qəhrəmanın yaşadığı cəmiyyətin dəyişməkdə olan əxlaq normalarına sərt etirazı dayanır. Çünki Cahandar ağanın faciəsi ictimai amillərdən qaynaqlanır. Cahandar ağa yeniliklə köhnəliyin üz-üzə gəldiyi, toqquşduğu bir cəmiyyətdə və tarixi keçid dövründə yaşadığını hər an hiss etdiyindən dərin bir narahatçılıq hissi keçirir. Cahandar ağanın xarakterik xüsusiyyətlərinin bir çox çalarları bilavasitə İsmayıl Şıxlının daxili-mənəvi keyfiyyətlərindən qaynaqlanır. Azərbaycan nəsrində İsmayıl Şıxlının «Dəli Kür» romanında yaratmış olduğu Cahandar ağa xarakterinin

təsiri ilə bir sıra obrazlar yaradılmışdır. Məhz bu cəhət Cahandar ağanın təsadüfi bir obraz olmadığını göstərən amillərdəndir.

Mirzə İbrahimovun «Pərvanə» romanı da milli xarakter yaradıcılığı baxımından diqqəti cəlb edən bədii örnəklərdən biridir. Bu romanda XIX əsrin ikinci yarısında Azərbaycanda və bütövlükdə Zaqafqaziyada cərəyan edən ictimai-siyasi hadisələr fonunda milli xarakterin maraqlı, yaddaqalan örnəkləri yaradılmışdır. Xüsusilə, yazıçının yaratmış olduğu Hürü xanım, dəmirçi Vəfadar, Sahib, Nəriman, İlyas bəy, Səlim ağa obrazları özünəməxsusluğu, bənzərsizliyi, daxili-mənəvi dünyasının hərtərəfli, dolğun canlandırılması ilə diqqəti cəlb edirlər. Əlbəttə, adı çəkilən obrazlar xarakter etibarilə eyni səviyyədə işlənilməmişlər. Lakin bütövlükdə onlar təsvir olunan süjetin əsasında dayanan hadisə və əhvalatların gedişində mühüm rol oynayırlar. Təəssüf ki, sosialist realizmi yaradıcılıq metodunun formalaşdırdığı qəlib və stereotiplərə uyğun olaraq romanda yaradılan obraz və xarakterlər müsbət və mənfi qütbləri təmsil edirlər.

Mövlud Süleymanlının «Köç» romanı milli xarakter yaradılışına fərqli yanaşma tərzi ilə seçilən orijinal bədii örnəklərdən biridir. Romanda uzun bir zaman kəsiyinin hadisələri ümumiləşdirilsə də, yazıçı əsas diqqəti Azərbaycan xalqının son iki əsrlik tarixinə yönəltməyə çalışmışdır. Lakin bir çox tarixi romanlarda olduğu kimi, burada müəyyən ardıcıllıqla hadisə və əhvalatların xronologiyası izlənilməmiş, tarixi dövrün ruhu şərti-metaforik səpkili obrazların xarakterləri fonunda canlandırılmışdır. Müəllif Azərbaycan tarixini milli-etnik yaddaşın işığında əks etdirməyə üstünlük verdiyindən istər-istəməz təsvir etdiyi qəhrəmanlarının xarakter cizgilərini də bu yöndə canlandırmışdır.

Romanda təsvir olunan hadisə və əhvalatlar kimi obrazların xarakter cizgiləri də folklor ruhu, xalqın etnik-mifoloji varlığını şərtləndirən səciyyəvi cizgilərlə təqdim olunmuş, hadisə və əhvalatların irreal səpkidə işlənilməsi təsvir olunan xarakterlərin şərti-metaforik aspektdə canlandırılmasını təmin etmişdir. Şərti-metaforizm isə özlüyündə mifik düşüncə tərzi ilə birləşdiyindən burada milli xarakter yaradıcılığı üçün özünəməxsus imkanlar yaratmışdır. Mövlud Süleymanlı Qarakəllə soyunun taleyinin izlənilməsi fonunda öz fikirlərini sərrast şəkildə əks etdirməyə nail olmuşdur. «Köç» romanında yazıçı Qarakəllə kökü ilə Qanıq evi arasında yüzillər boyu davam edən qan düşmənçiliyinə, tayfa ədavətinə, bu ədavətin törətdiyi fəsadlara xüsusi diqqət yetirmiş, əsərdəki xarakterləri bu məcrada aşkarlamağa çalışmışdır. Maraqlıdır ki, yazıçı simvolik səciyyə daşıyan bu xarakterlərin timsalında Azərbaycan xalqının yaşadığı tarixin, qarşılaşdığı faciələrin canlı mənzərəsini yaratmaq məramı izləmişdir. «Köç» romanında «külli- miqdarda epizodik iştirakçılar»a təsadüf olunmaqdadır. Romanda Bəkil, Beyrək, Qutluq, Göyüş, Oral, Uğur və başqaları kimi milli-əxlaqi keyfiyyətləri ilə seçilən obrazlar müəllifin sərrast qələmi ilə xarakter səviyyəsinə yüksəlmişlər.

«Köç» romanında yaradılan xarakterlərin milli-etnik xüsusiyyətlərini şərtləndirən məqamlardan ən başlıcası əsərin istər süjet xəttinin, istərsə də təsvir olunan hadisə və əhvalatların «Kitabi-Dədə Qorqud» eposundan qaynaqlanaraq yaradılmasıdır. Bir çox motivlər romana dastandan gəlir. İstər 1960-1980-ci illər Azərbaycan nəsrində, istərsə də daha sonrakı dövrün ədəbiyyatında milli yaddaş problemi, milli xarakter və psixologiyanın yaşadılması zərurəti və bundan imtina edilməsinin milli kimlik üçün yaradacağı mənfi təzahürlər Mövlud Süleymanlının «Köç» romanında olduğu kimi heç bir əsərdə bu səviyyədə qaldırılmamışdır.

İlyas Əfəndiyevin «Geriyə baxma, qoca» romanında tarixin adi mənzərəsi, insanları düşündürən gündəlik qayğılar bədii təcəssümünü tapmışdır. Müəllif bu tipli hadisələr fonunda xalq həyatının canlı lövhələrini yaratmış, xalqın milli-mənəvi varlığını olduğu kimi əks etdirmək niyyəti izləmişdir. Romanda «obrazların şəxsi həyatlarına, fərdi cizgilərinə, insani hisslərinə, məişət hadisələrinə xüsusi diqqət yetirilmişdir və təsvirin bu səmtə yönəlməsi sayəsində gözlərimiz önündə gerçəkliyin, xalq həyatının mühüm qatları açılır, nəticədə epoxa haqqında, milli-mənəvi varlığımız barədə təsəvvürümüz zənginləşir».[1] Burada süjet xəttinin əsasında duran hadisələr, əsasən, qoca Muradın dili ilə təqdim olunur. O, özünün uşaqlıq illərindən başlayaraq yaşadığı dövrədək baş verən hadisə və əhvalatları nəql edir. Muradın təhkiyəsində təqdim olunan hadisələr üç tarixi mərhələni – Çar Rusiyası, Cümhuriyyət dövrü və Sovet hakimiyyəti illərini əhatə edir. Şübhəsiz ki, əsərin yazıldığı dövrün ideoloji qəlib və stereotipləri tarixi hadisələrin təqdimində bu və ya digər şəkildə özünü büruzə verməkdədir.

Elçinin tarixi mövzuda, folklor motivlərinə söykənərək qələmə aldığı «Mahmud və Məryəm» romanında milli-əxlaqi dəyərlərin bir sıra səciyyəvi cəhətləri qabardılmışdır. «İnsan və şəxsiyyət konsepsiyası müxtəlif obraz və qəhrəmanların vasitəsilə ifadə edilmiş» olan[2] «Mahmud və Məryəm» romanının baş qəhrəmanı Mahmuddur və süjet xəttini təşkil edən hadisə və əhvalatlar əsas etibarilə onunla bağlıdır. Yazıçı Mahmudun xarakterini milli-əxlaqi dəyərlər müstəvisində canlandırmağa çalışmış, onu öz mühiti fonunda təqdim etmişdir. Romanda «Mahmud obrazı bir neçə funksiya daşıyır. Onun birinci əsas funksiyası ondan ibarətdir ki, zəmanənin əsil mahiyyətini açıqlasın».[3]

Mahmud xaraktercə dərdli insandır, lakin «Əsli və Kərəm» dastanındakı Kərəmdən fərqli olaraq o yalnız ayrılıq dərdindən əzab çəkmir. Mahmudun dərdi eşq, hicran, ayrılıq dərdinin də ehtiva olunduğu, daha çox insanlığın

---

[1] Hüseynov A. Müxtəlifliyin birliyi (Sovet ədəbiyyatında milliliklə beynəlmiləlliyin dialektik vəhdəti). Bakı: Yazıçı, 1983, s. 166.

[2] Paşayeva N. Yeniləşən ədəbiyyatın yeni insanı. Bakı: «ATİ» nəşriyyatı, 2004, s. 122.

[3] Yenə orada.

taleyi üçün narahatlıqdan irəli gələn ictimai-fəlsəfi məzmun daşımaqdadır. Yazıçı öz qəhrəmanını «dərdli aşiqdən dərdli insana çevirmək»[1] üçün onu mürəkkəb, keşməkeşli situasiyalardan keçirmişdir. İstər sevgisi uğrunda apardığı mücadilələrdə, istərsə də insanlığın yaşadığı faciələrlə bağlı düşüncələrində o, milli və bəşəri dəyərlər prizmasından təqdim olunur. «Mahmud və Məryəm» romanında «təkcə mövzu baxımından yox, həm də struktur və poetika baxımından xalq yaradıcılığının və aşıq ədəbiyyatının strukturunu xatırladan elementlər mövcuddur».[2] Roman milli xarakter yaradıcılığı baxımından da xalq ədəbiyyatından qaynaqlanan çalarlarla zəngindir ki, məhz bu aspekt onun uğur qazanmasını şərtləndirmişdir.

Yusif Səmədoğlunun «Qətl günü» romanında ümumbəşəri ideyalar zəminində canlandırılan obraz və xarakterlər özünəməxsus milli-əxlaqi keyfiyyətləri ilə maraq doğurur. Romanda müxtəlif zaman kəsikləri içərisində daha çox XX əsrin otuzuncu illəri – əsas etibarilə repressiya dövrü qabarıq şəkildə təsvir olunmuşdur. Yazıçı həmin dövrü iki obrazın – xəstə və Sədi Əfəndinin xarakteri fonunda canlandırmağa çalışır. Xəstə daxili-mənəvi dünyasının zənginliyi ilə seçilən, xalqını, millətini sevən, vətənin yaşadığı ağrıları «əzalarında, sinirlərində» hiss edən bir ziyalıdır. O, öz ölkəsinin taleyi haqqında dərin narahatlıq hissi keçirir. Xəstənin repressiya qurbanı olmuş Sədi Əfəndi haqqında monoqrafiya yazması da onun millət sevgisindən qaynaqlanır. Xəstə Sədi Əfəndiyə bir tərəfdən vətəninə, millətinə olan sevgisinə görə, digər tərəfdən isə onun taleyində özünü gördüyünə görə böyük dəyər verir. Yazıçı xəstənin həyatının ən çətin məqamlarda belə milli-mənəvi dəyərlərə bağlılığını orijinal bədii vasitələrlə əks etdirməyə çalışmışdır. Xəstə cəmiyyətdə nə zamansa haqqın, ədalətin, insanlığın bərpa olunacağına inamını itirmişdir. Romanda təsvir olunan Sədi Əfəndi obrazı da milli-əxlaqi dəyərlərin, vətən və millət sevgisinin təcəssümü kimi düşünülmüşdür. Məhz millətini sevdiyi, haqqı, həqiqəti söylədiyi üçün repressiya olunmuş bu obrazın timsalında yazıçı milli-mənəvi yaddaş problemini qaldırmış və onun bədii həllinə nail olmuşdur. Romanda Sədi Əfəndinin xarakter cizgiləri onun gündəlikləri vasitəsilə təqdim olunur ki, bu da yazıçıya onun daxili-mənəvi dünyasının ən mübhəm qatlarına baş vurmağa imkan verir.

Dissertasiyanın I fəslinin ikinci yarımbölməsi «**Qaçaqçılıq hərəkatı və milli xarakter problemi**» adlanır. Ötən əsrin 1960-1980-ci illər Azərbaycan nəsrində qaçaqçılıq mövzusunda yaranan romanlar milli xarakter yaradıcılığına özünəməxsus təsir göstərmişdir. Qaçaqçılıq mövzusunda yazılmış tarixi romanlar xalqın etnik şüurunun, qan yaddaşının oyandırılmasında əhəmiyyətli

---

[1] Müasir Azərbaycan ədəbiyyatı: 2 cilddə, II c., Bakı: Bakı Universiteti nəşriyyatı, 2007, s. 523.

[2] Paşayeva N. İnsan bədii tədqiq obyekti kimi. Bakı: «XXI» –Yeni Nəşrlər Evi, 2003, s. 125.

rol oynadığından milli xarakter yaradıcılığına yeni bir ahəng gətirmişdir.

Yazıçı Cəlal Bərgüşadın «Bozatın belində» romanı XIX yüzilin ikinci yarısında rus işğalçılarına və onların yerli əlaltılarına qarşı mübarizə aparmış Azərbaycanın qəhrəman oğlu Qaçaq Nəbinin həyat və mübarizəsinə həsr olunmuşdur. Yazıçı romanda tarixi dövrün mənzərəsi fonunda yaratmış olduğu ayrı-ayrı obrazların xarakterləri fonunda milli-əxlaqi dəyərlərə bağlılığın özünəməxsus aspektlərini canlandırmışdır. Əsərdə, xüsusilə, Qaçaq Nəbi və onun həyat yoldaşı Həcər xanımın xarakteri daha dolğun və canlı şəkildə yaradılmış, onların xarakteri ən mürəkkəb hadisə və əhvalatlar fonunda sınağa çəkilərək aşkarlanmışdır. Yazıçı Qaçaq Nəbinin qəhrəmanlığını, igidliyini, mübarizliyini, qorxmazlığını, Həcər xanımın sədaqətini, təmizliyini, saflığını, dözümlülüyünü inandırıcı ştrix və detallarla əks etdirməyə çalışmışdır. Qadının öz əri ilə birgə mübarizə meydanına atılması, ən çətin məqamlarda ona arxa durması «Kitabi-Dədə Qorqud», «Koroğlu» və digər qəhrəmanlıq dastanlarında öz əksini tapmışdır. Bu məqam «Qaçaq Nəbi» dastanının da süjet xəttinin əsasında dayanır. «Bozatın belində» romanında Cəlal Bərgüşadın Qaçaq Nəbi və Həcər xanımı eyni yolun yolçusu kimi canlandırması onların daxili dünyasını milli-əxlaqi dəyərlər müstəvisində aşkarlamağa imkan vermişdir. Məhz bu baxımdan Qaçaq Nəbi və Həcər xanımın xarakter cizgiləri milli psixologiyanın və əxlaqi dəyərlərin orijinal təzahürü kimi maraq doğurur.

İstedadlı yazıçı Fərman Eyvazlının tarixi mövzuda qələmə aldığı «Qaçaq Kərəm» romanı da milli xarakterin özünəməxsus şəkildə bədii təcəssümü baxımından diqqəti çəkməkdədir. İki hissədən ibarət olan romanda yazıçı qaçaqçılıq hərəkatı fonunda tarixi şəxsiyyət kimi Qaçaq Kərəmin xarakterini canlandırmağa çalışmışdır. Romanda iyirminci yüzilin əvvəllərində baş verən ictimai-siyasi hadisələr kontekstində Qaçaq Kərəmin bir insan və şəxsiyyət kimi qarşılaşdığı mürəkkəb siyasi hadisələr təsvir olunmuş, onun hərtərəfli bədii obrazı yaradılmışdır. Fərman Eyvazlının qəhrəmanı milli-mənəvi dəyərlərə bəslədiyi sayğısı ilə yadda qalır. Romanda şəxsi zəmində, atasının intiqamını almaq üçün mübarizə meydanına atılan Qaçaq Kərəm hadisələrin sonrakı inkişafı fonunda xalqın azadlığı uğrunda mücadilə aparan ciddi ictimai-siyasi şəxsiyyətlərdən birinə çevrilir. Bütün bunlar təsvir olunan hadisə və əhvalatlar fonunda bədii təcəssümünü tapdığından qəhrəmanın milli xarakter kimi canlı, dolğun səciyyə daşıyır. Yazıçı romanın mürəkkəb, çoxşaxəli süjetini təşkil edən hadisə və əhvalatlar fonunda ciddi təhsil görməyən bir şəxsin – Qaçaq Kərəmin Azərbaycanın bütövlüyü problemi ətrafında düşünən bir siyasət adamına çevrilməsini inandırıcı detallarla əks etdirməyə çalışmışdır. Romanda Kərəm mərd, mübariz, daxilən təmiz və sadəlövh təbiətə malik bir insan kimi təsvir edilmişdir. Daxili-mənəvi dünyasının bu cizgilərini Kərəmin romandakı digər qəhrəmanlarla qarşılıqlı ünsiyyətində daha qabarıq duymaq mümkündür.

Fərman Eyvazlının «Qaçaq Kərəm» romanında Qaçaq Kərəmlə yanaşı, İsrafil ağa obrazı da milli xarakterin başlıca keyfiyyətlərini təcəssüm etdirməkdədir. Yazıçı bu iki obrazın qarşılıqlı ünsiyyət, təmas və münasibətləri fonunda problemin bədii həllini uğurla gerçəkləşdirməyə nail olmuşdur. Romanda təsvir olunan ayrı-ayrı səhnə və epizodlar hər iki qəhrəmanın daxili-mənəvi keyfiyyətlərini aşkara çıxarır, onların xarakterinə məxsus milli-əxlaqi xüsusiyyətləri şərtləndirir. Fərman Eyvazlının Qaçaq Kərəm xarakterinə müraciət etməsi, onu daxili-mənəvi dünyasının bütün cizgiləri ilə canlandırması təsadüfi səciyyə daşımır. Romanın qələmə alındığı dövrdə milli-mənəvi dəyərlərə olan rəğbət və məhəbbət bu obrazın timsalında ümumiləşdirilmişdir.

Tarixi romanlarda milli xarakterin təcəssümü bəhs olunan örnəklərdə səciyyələndirilən məqamlarla bitmir. Buna görə də dissertasiyada araşdırılan problemin ən ümumi aspektlərinə toxunulmuşdur.

«**Ədəbi və tarixi-siyasi şəxsiyyət kultu və milli xarakter** » adlı II fəsildə bəhs olunan dövrdə yazılmış müasir mövzulu romanlar təhlil obyektinə çevrilmişdir. Bu fəsil iki yarımbölmədən ibarətdir.

Dissertasiyanın II fəslinin birinci yarımbölməsi «**Ədəbi şəxsiyyət və milli xarakter yaradılışı**» adlanır. 1960-1980-ci illər Azərbaycan nəsrinin dəyərli nümunələrindən olan Əzizə Cəfərzadənin «Vətənə qayıt», «Aləmdə səsim var mənim», «Yad et məni», İsa Hüseynovun «Məhşər», Əlisa Nicatın «Gəncəli müdrik», Çingiz Hüseynovun «Fətəli fəthi», Mahmud İsmayılovun «Xaqani» və digər romanlarda yaradılan xarakterlər yaşadıqları dövrün və cəmiyyətin səciyyəvi cizgilərini əks etdirməklə yanaşı, həmçinin mənsub olduqları xalqın milli-mənəvi keyfiyyətlərini daşımaqdadırlar.

Əzizə Cəfərzadənin «Şirvan» trilogiyasına daxil edilmiş romanlarında milli xarakterin bir sıra maraqlı, orijinal nümunələrinə təsadüf olunmaqdadır. Trilogiyanın «Vətənə qayıt» adlı birinci hissəsində XVIII yüzilin istedadlı şairi Nişat Şirvaninin, «Aləmdə səsim var mənim» adlı ikinci hissəsində XIX əsrin görkəmli söz ustadı Seyid Əzim Şirvaninin, «Yad et məni» adlı sonuncu hissəsində isə XX əsrin vətənpərvər şairi Abbas Səhhətin obrazı yaradılmışdır.

«Vətənə qayıt» romanında yazıçı Nəcəfin – Nişat Şirvaninin ömür tarixçəsini əks etdirməyi əsas məqsəd kimi qarşısına qoymuş, onun bir insan və xarakter kimi formalaşmasını incə, zərif detallarla əks etdirməyə çalışmışdır. Romanda şairin erkən yaşlarında qarşılaşdığı faciələr, gənc ikən evləndiyi Kəburətin vəfat etməsi, Maroya olan məhəbbəti də maraqlı, yaddaqalan cizgilərlə təsvir olunmuşdur. Müəllif Nişatın milli əxlaqi dəyərlərə yönəlik xarakter cizgilərini Şamaxıda baş verən ictimai-siyasi hadisələrdə yaxından iştirakı, Salyana sürgün olunması, nəhayət uzun ayrılıqdan sonra vətənə dönüşü ilə bağlı baş verən hadisələr fonunda aşkarlamağa çalışmışdır. Maraqlıdır ki, Nişat yaşca cavan olmasına baxmayaraq ağıllı, zəkalı, müdrik bir insan kimi təsvir olunmuşdur.

«Aləmdə səsim var mənim» romanında Əzizə Cəfərzadənin XIX yüzil Şamaxı ədəbi-mədəni mühiti fonunda yaratmış olduğu bir sıra obrazlar, xüsusilə görkəmli divan şairi Seyid Əzimin sürəti olduqca canlı təsir bağışlamaqda, milli-əxlaqi dəyərlərin başlıca xüsusiyyətlərini öz xarakterində ehtiva etməkdədir. Yazıçı bir çox hallarda təsvir etdiyi hadisə və əhvalatlara onun baxışları ilə nəzər yetirir. Romanda tarixiliklə bədiiliyin məharətlə əlaqələndirilərək əsərin arxitektonikasını şərtləndirən atributlardan birinə çevrilməsi milli xarakter yaradılışına da təsirsiz qalmamış, Seyid Əzimin milli xarakter cizgiləri üç baxış bucağından - şair, müəllim, nəhayət, şəxsiyyət kimi səciyyələndirilmişdir.[1] Yazıçı onun şairliyini ön plana çəkmiş, daxili-mənəvi dünyasının bu aspektini xüsusi şəkildə qabartmağa çalışmışdır.

«Yad et məni» romanında ötən əsrin başlanğıcında baş verən ictimai-siyasi hadisələr təsvir olunmuşdur. Romanda yazıçı Abbas Səhhətin həyat və mübarizə yolunu əks etdirməyi qarşısına məqsəd qoysa da, o, bu obrazla yanaşı Mirzə Ələkbər Sabir və Ağəli Nasehin xarakter cizgilərini də əks etdirmişdir. Lakin bununla belə, romanda milli xarakterin bir sıra səciyyəvi cizgilərini daha qabarıq şəkildə Abbas Səhhətin xarakterində müşahidə etmək mümkündür. Yazıçı onun daxili-mənəvi keyfiyyətlərini 1902-ci ildə Şamaxıda baş vermiş zəlzələ ilə müşayiət olunan məlum hadisələr kontekstində canlandırmağa çalışmışdır. Abbas Səhhət şair, tərcüməçi, həkim kimi təqdim olunsa da, daha çox onun bir vətəndaş kimi milli xarakter cizgilərinin əks etdirilməsinə üstünlük verilmişdir. Romanda yatalaqdan əziyyət çəkən xəstələri müalicə edərkən özü də xəstəliyə yoluxub vəfat edən Abbas Səhhətin taleyi vətən və millət yolunda fədakarlığın canlı örnəyidir.

Əzizə Cəfərzadə «Sabir» romanında Azərbaycanın böyük satirik şairi Mirzə Ələkbər Sabirin obrazını yaratmış, onun xarakterinin milli-əxlaqi keyfiyyətlərini şərtləndirən məqamları aşkarlamağa çalışmışdır. Lakin «Şirvan» trilogiyasına daxil olan əsərlərdən fərqli olaraq «Sabir» romanı çoxşaxəli deyil, vahid süjet əsasında işlənildiyindən burada əsas diqqət Sabirin xarakterinin açılmasına yönəldilmişdir. Yazıçının romanın süjeti boyu bu və ya buna bənzər publisistik mülahizə və qənaətlərlə səciyyələnən yazı tərzinə baxmayaraq, «Sabir» romanı bütövlükdə tarixi-bədii nəsrin maraqlı, orijinal örnəklərindən biri kimi dəyərləndirilə bilər.

İsa Hüseynovun (Muğanna) «Məhşər» romanında yaratdığı Nəsimi obrazı milli xarakterin orijinal örnəklərindən biri hesab edilə bilər. Məlum olduğu kimi, romanda XIV əsrin sonları XV əsrin başlanğıcında cərəyan edən hadisələr təsvir olunmuşdur. Romana «Məhşər» adının seçilməsi isə təsvir olunan dövrün mürəkkəbliyini, qanlı-qadalı olduğunu, müharibə və insan tələfatı, mənəvi-ruhi sarsıntılarla müşayiət olunduğunu göstərməkdədir. Şübhəsiz ki,

---

[1] Telmanqızı A. Əzizə Cəfərzadənin bədii dünyası. Bakı: Azərnəşr, 2002, s. 46.

belə bir tarixi dövrə müraciət edən yazıçının yaratdığı insan xarakterləri də dövrün sosial-mənəvi ovqatından qaynaqlanmalıdır. Romanda Nəsimi, Nəimi, İbrahim şah, Şeyx Əzəm, Teymurləng kimi obrazlar yaradılmışdır. Lakin bu obrazlar içərisində Nəsimi aparıcı yer tutmaqdadır. Nəsimi obrazında milli və bəşəri xüsusiyyətlər vəhdətdə təcəssümünü tapmışdır. Bu da təsadüfi deyildir; çünki Nəsimi özünün zəngin yaradıcılığı, qeyri-adi poeziyası ilə mənsub olduğu xalqın hüdudlarını aşmışdır. O, yalnız xalqının deyil, bütün Şərqin və bütövlükdə bəşəriyyətin problemləri, ağrıları, qayğıları ilə yaşayan bir sənətkardır. Nəsimi obrazının milli və bəşəri dəyərlər müstəvisində canlandırılması bir tərəfdən müraciət olunan tarixi dövrün mahiyyətindən, digər tərəfdən isə qəhrəmanın bioqrafiyasından və bir sənətkar kimi yaradıcılığının ruhundan qaynaqlanır.

Əlisa Nicatın «Gəncəli müdrik» romanında yaratdığı Azərbaycanın XIX yüzildə yaşayıb-yaratmış olan görkəmli şairi və filosofu Mirzə Şəfi Vazehin xarakteri milli-mənəvi keyfiyyətləri ilə diqqəti çəkməkdədir. Mirzə Şəfi Vazehin həyat yolu sözün həqiqi mənasında mübahisəli, qaranlıq məqamlarla müşayiət olunmaqdadır. Onun haqqında çoxlu sayda tədqiqat əsərləri, müxtəlif səpkili araşdırmalar yazılsa da, indiyədək Mirzə Şəfi Vazeh fenomeninə aydınlıq gətirilməmişdir. Əsərləri Avropanın əksər dillərinə tərcümə olunan şairin şeirlərinin orijinalının hələ də əldə edilməməsi onun şəxsiyyətinə olan diqqət və marağın get-gedə artmasını şərtləndirir. Həyatı ehtiyac və məhrumiyyətlər içərisində keçən Mirzə Şəfi taleyin hökmü ilə İbrahim xanın qızı Züleyxa xanıma dərs deməli olur və bu qarşılaşma onun ruhi-mənəvi dünyasında silinməz izlər buraxır. Yazıçı Mirzə Şəfinin Züleyxaya vurulmasını, lakin bəlli səbəblərdən duyğularını gizləməyə çalışmasını, həmçinin Züleyxanın öz müəlliminə olan ilahi sevgisinin onun daxili dünyasında yaratdığı təbəddülatı milli əxlaq və psixologiyadan qaynaqlanan düşüncə, hərəkət və davranışlar çərçivəsində təcəssüm etdirməyə çalışmışdır.

Romanda Mirzə Şəfinin bir xarakter kimi yetkinləşməsində Tiflis mühitinin mühüm rol oynadığı qabarıq təsvir olunmuşdur. Tiflisdə cərəyan edən hadisələr, ünsiyyətdə olduğu şəxslər – Mirzə Fətəli Axundzadə, Abbasqulu ağa Bakıxanov, Yan Polonski, Fridrix Bodenştedt və b. ilə əlaqə və bağlılıq Mirzə Şəfinin daxili dünyasında ciddi təbəddülat yaradır. Romanda Mirzə Şəfinin bir şair kimi də milli xarakter cizgilərinin açılmasına çalışılmışdır. Xüsusilə, bu aspekt onun Fridrix Bodenştedtlə əlaqə və ünsiyyəti fonunda daha çox diqqəti cəlb edir. Əlisa Nicat Mirzə Şəfi Vazeh və Fridrix Bodenştedt məsələsinə, ümumiyyətlə, şairin ədəbi kimliyi ilə bağlı mübahisələrə müəyyən qədər yer vermiş, onun faciəsinin ictimai aspektlərinə diqqəti yönəltmişdir.

Ədəbi şəxsiyyətlərin xarakterlərinin yaradılması baxımından Çingiz Hüseynovun «Fətəli fəthi» (rusca nəşrində «Фатальный Фатали») romanı

diqqəti cəlb edən bədii örnəklərdən biridir. Roman janrının «tarixi-fantaziya» tipi kimi qələmə alınmış bu əsərdə XIX yüzildə cərəyan edən tarixi hadisələr fonunda böyük Azərbaycan mütəfəkkiri Mirzə Fətəli Axundzadə xarakteri canlandırılmışdır.

XIX yüzil Azərbaycan xalqının Rusiya və İran imperiyaları arasında parçalanması tarixi kimi mürəkkəb, faciəvi bir mərhələni ehtiva edir. Bu tarixdə müharibələrlə müşayiət olunan hadisələr, ictimai-siyasi, dini-ideoloji və ədəbi-kulturoloji müstəvidə baş verən proseslər Azərbaycan xalqının tarixində dərin izlər buraxmışdır. Çingiz Hüseynovun «Fətəli fəthi» romanının tarixi roman kimi dəyəri belə mürəkkəb bir dövrün hadisələrinə aydınlıq gətirmək cəhdi kimi dəyərləndirilə bilər. Romanın uğur qazanmasının əsas səbəblərindən biri, bizcə, Mirzə Fətəlinin orijinal, bənzərsiz xarakteri ilə bağlıdır. Bu obraza müraciət bir neçə aspekti ilə diqqəti cəlb edir. Mirzə Fətəli XIX yüzil Azərbaycan tarixinin yeganə şəxsiyyətidir ki, yaşadığı dövrdə baş verən ictimai-siyasi hadisələr bu və ya digər şəkildə onun bioqrafiyası ilə bağlı olmuşdur. Həmçinin Mirzə Fətəlinin Çar Rusiyasının canişinliyində çalışması ona dövrün ictimai-siyasi proseslərinə müəyyən mənada müdaxilə etmək imkanları vermişdir ki, tarixi roman müəllifi üçün bu faktın daşıdığı əhəmiyyətin izaha ehtiyacı yoxdur. Bütün bunlarla yanaşı, Mirzə Fətəlinin yeni təfəkkürlü bir yazıçı, realist filosof, dramaturq, yeni əlifba uğrunda mübariz, islam dininə qarşı sərt mövqedə dayanan maarifpərvər, milliyyətçi düşüncənin daşıyıcısı olan ziyalı kimi bir çox səciyyəvi cəhətləri onu tarixi roman qəhrəmanına çevirmək zərurəti doğurmaqdadır. Lakin qeyd olunmalıdır ki, Çingiz Hüseynovun «Fətəli fəthi» romanı ənənəvi epik romanlar üslubunda qələmə alınmamışdır. Ümumiyyətlə, yazıçı dövrün bəhs etdiyi heç bir tarixi hadisəsini epik şəkildə canlandırmaq məramı izləməmişdir. Yazıçı milli xarakter kimi təqdim etdiyi «sinəsi nişanlı, çiyni paqonlu, libası altında həmişə xalqın dərdinə qalan, yanar, alovlu ürək»[1] gəzdirən Mirzə Fətəlinin baxışları fonunda tarixi izlədikcə istər-istəməz qəhrəmanının daxili dünyasının ən gizli qatlarına nüfuz etmək imkanı əldə edir. Əsərdə Mirzə Fətəlinin Gəncə üsyanına, Cavad xanın qətlinə, Şeyx Şamil hərəkatına, Azərbaycanın Rusiya və İran imperiyaları arasında parçalanmasını şərtləndirən «Gülüstan» və «Türkmənçay» müqavilələrinə baxışları onun xarakterinin milli və vətəndaşlıq cizgilərini tamamlayır. Bütün bu proseslər fonunda Mirzə Fətəlinin bir Azərbaycan türkü kimi yaşadığı mənəvi iztirab və ağrılar real şəkildə bədii ifadəsini tapmışdır.

Tədqiqata cəlb olunan dövrün nəsrində Mahmud İsmayılovun «Xaqani» romanı ədəbi şəxsiyyətin bədii obrazının yaradılması baxımından diqqəti çəkən bədii örnəklərdən biridir. Romanda Azərbaycanın XII əsrdə yaşayıb-yaratmış

---

[1]Hüseynov Çingiz. Fətəli fəthi, Bakı: Yazıçı, 1986, s. 5.

görkəmli şairi Xaqani Şirvaninin həyat və yaradıcılıq yolu bədii təcəssümünü tapmışdır. Lakin qeyd olunmalıdır ki, tarixi dövrün bir sıra fakt və sənədlərini sərrast əks etdirməsinə baxmayaraq, roman bədii cəhətdən zəif çıxmışdır. Bu da hər şeydən öncə, Xaqaninin xarakter cizgilərinin yaradılmasında özünü büruzə verməkdədir. Yazıçı dövrün koloritini, mənəvi-əxalaqi dəyərlərini, bütövlükdə isə Xaqaninin milli xarakter cizgilərini bütün dolğunluğu ilə yarada bilməmişdir. Ona görə də roman ayrı-ayrı tədqiqatlarda ciddi şəkildə tənqid olunmuşdur.

Bütövlükdə 1960-1980-ci illərdə yaranmış Azərbaycan romanlarında ədəbi şəxsiyyətlərin milli xarakter cizgilərinin yaradılması özünəməxsus səciyyə daşıdığından problemin daha geniş müstəvidə təhlilinə ehtiyac duyulur.

Dissertasiyanın II fəslinin ikinci yarımbölməsi «**Tarixi-siyasi şəxsiyyət və milli xarakter problemi**» adlanır. Milli xarakterin təcəssümü tarixi-siyasi şəxsiyyətlərin həyat və mübarizə yoluna həsr olunmuş Əzizə Cəfərzadənin «Bakı-1501», Əlisa Nicatın «Qızılbaşlar», Fərman Kərimzadənin «Xudafərin körpüsü», «Çaldıran döyüşü», Cəlal Bərgüşadın «Siyrilmiş qılınc» romanlarında bədii təcəssümünü tapmışdır.

Şah İsmayıl şəxsiyyətinə müraciət, onun xarakterinin roman prizmasından dəyərləndirilməsi təsadüfi səciyyə daşımır. Bu, Sovet imperiyasında gedən milli azadlıq mübarizəsinin gizli dalğası kimi diqqəti çəkməkdədir. Məlumdur ki, imperiya şəraitində milli azadlıq mübarizələri bir çox hallarda tarixə, onun ayrı-ayrı şəxsiyyətlərinə qayıdış fonunda gerçəkləşir ki, yaranan bədii örnəklər bu faktı sübut etməkdədir.

Şah İsmayıl Xətai haqqında ilk tarixi roman Əzizə Cəfərzadənin «Bakı-1501» romanıdır. Yazıçı böyük Azərbaycan hökmdarı və sərkərdəsinin obrazını konkret olaraq onun 1501-ci ildə Bakıya hücumu ilə bağlı cərəyan edən hadisələr fonunda canlandırmışdır. Lakin romanda cərəyan edən hadisələr yalnız bu hadisə ilə məhdudlaşmır. Romanda yazıçının ən böyük uğuru Şah İsmayıl kimi tarixi-siyasi bir şəxsiyyətin xarakterini yaratması ilə şərtlənir. «Bakı-1501» romanının epiloqunda Şah İsmayılın dilindən səslənən mühakimlər onun daxili-mənəvi dünyasının bir sıra gizlinlərini üzə çıxarmaq baxımından səciyyəvidir: «Sizə üç əmanət qoyulub, ərən babalar: dilimiz, qeyrətimiz, Vətənimiz – can sizin, can onlar əmanəti».[1] Baş qəhrəmanın dilindən səslənən dil, qeyrət və Vətən anlayışları yalnız romanın ideya istiqamətini deyil, həmçinin qəhrəmanın milli xarakter kimi özünəməxsus keyfiyyətlərini də aşkarlayır.

Şah İsmayılın milli xarakter cizgiləri Əlisa Nicatın «Qızılbaşlar» romanında özünəməxsus şəkildə bədii təcəssümünü tapmışdır. Romanda əsas diqqət Şah İsmayılın şəxsiyyətinə deyil, bütövlükdə qızılbaşlar hərəkatına

[1] Cəfərzadə Əzizə. Bakı-1501, Bakı: Yazıçı, 1981, s. 263.

yönəldilsə də, yazıçı baş qəhrəmanının xarakter cizgilərini dolğun və canlı şəkildə yarada bilmişdir. Yazıçı romanın ayrı-ayrı səhnə və epizodlarında Şah İsmayılın igid, qəhrəman, cəsur, xalqını və yurdunu sevən, əqidə sahibi bir insan kimi milli-əxlaqi keyfiyyətlərini göstərmiş, təsvir olunan hadisə və əhvalatların gedişində onun dəyişən, yetkinləşən fikir, düşüncə və baxışlarını əks etdirə bilmişdir. Qəhrəmanın daxili dünyasına, özü ilə mücadiləsinə diqqət yetirdiyi üçün Əlisa Nicatın Şah İsmayılı daha canlı və bütöv təsir bağışlayır. Roman yarandığı dövrdə ədəbi-nəzəri fikrin diqqətini cəlb etmiş, haqqında müxtəlif səpkili araşdırmalar yazılmış, müəlliflərin əksəriyyəti Şah İsmayılın milli xarakter cizgilərinə diqqəti çəkmiş, fikir və qənaətlərini bu kontekstdə ifadə etməyə üstünlük vermişlər.

Fərman Kərimzadənin «Xudafərin körpüsü» romanı da Şah İsmayılın ömür tarixçəsinin, xarakter cizgilərinin yaradılması baxımından diqqəti çəkir. Romanda Səfəvi hökmdarının həyat və mübarizə yolunun ilk dövrlərinin təsvirinə yer verilmişdir. Yazıçı romanda Şah İsmayılın xarakterini «hərtərəfli əks etdirməyə, hətta onun «tarixən məhdud cəhətləri»ni də açıb göstərməyə çalışmışdır».[1] «Xudafərin körpüsü» romanının bilavasitə davamı olan «Çaldıran döyüşü»ndə əsas diqqət Şah İsmayılın milli xarakter keyfiyyətlərinin aşkarlanmasına yönəldilmişdir. Başqa sözlə, əgər «Xudafərin körpüsü»ndə Şah İsmayılın xarakteri daha çox dövrün ictimai-siyasi prosesləri fonunda aşkarlanırsa, «Çaldıran döyüşün»ndə əsas diqqət baş verən müharibə fonunda qəhrəmanın daxili-mənəvi yaşantılarına yönəldilmişdir. Fərman Kərimzadənin adı çəkilən romanlarında bir çox hökmdar obrazları yaradılsa da, yazıçının milli xarakter haqqında estetik mövqeyi Şah İsmayıl obrazında dolğun və hərtərəfli bədii təsdiqini tapmışdır. Yazıçı Şah İsmayılın xarakter cizgilərinin təsviri və təqdimində bütövlükdə Azərbaycan xalqının taleyi uğrunda mübarizə aparmağın, Vətənin və millətin azadlığı yolunda hər cür fədakarlığa hazır olmağın real, gerçək örnəyini ortaya qoymaq məramı izləmişdir.

Milli xarakter yaradılışı etibarilə müəyyən mübahisə doğuran, haqqında tənqidi fikirlər söylənilən əsərlərdən biri də Cəlal Bərgüşadın «Siyrilmiş qılınc» romanıdır. Azərbaycanın qəhrəman oğlu, uzun illər ərəb xilafətinə qarşı mübarizə aparmış Babək Xürrəminin həyat və mübarizə yoluna həsr olunmuş roman müəllifi fakt və hadisələrin təqdimində, milli-əxlaqi dəyərlərin bəhs olunan dövrün ruhuna uyğun şəkildə canlandırılmasında, xüsusilə xarakter yaradıcılığında bir sıra yanlışlıqlara və təhriflərə yol vermiş, ədəbi tənqiddə romanın kəskin tənqid olunmasına şərait yaratmışdır. Romanda mübahisə doğuran məqamlardan biri Babəkin milli xarakter kimi işlənilə bilinməməsi, onun dolğun, bütöv obrazının yaradılmamasıdır. Müəllif fakt və sənədlərə

[1]Babayeva G. Fərman Kərimzadənin yaradıcılıq yolu: Filol. elm. nam. ... dissert. Bakı, 2004, s. 75.

istinad etdiyini, təsvir etdiklərinin real səciyyə daşıdığını iddia etsə də, bütövlükdə Babək xaraktercə sönük çıxmışdır. Bu bir tərəfdən Cəlal Bərgüşadın bir yazıçı kimi qeyri-peşəkarlığından qaynaqlanırsa, digər tərəfdən tarixi dövrün saxtalaşdırılmasından irəli gəlir.

Bütövlükdə təhlilə cəlb olunan romanlar aşkar şəkildə göstərir ki, 1960-1980-ci illər nəsrində milli xarakter yaradıcılığında tarixi-siyasi mövzu mühüm rol oynamaqdadır.

«**Milli xarakter sosial-siyasi və mənəvi-əxlaqi dəyərlər kontekstində**» adlı III fəsildə bəhs olunan dövrdə yazılmış müasir mövzulu romanlar təhlil obyektinə çevrilmişdir. Bu fəsil iki yarımbölmədən ibarətdir.

Dissertasiyanın III fəslinin birinci yarımbölməsi «**Sosial-siyasi həyatın epik təcəssümü və milli xarakter**» adlanır. 1960-1980-ci illər ədəbi prosesinin incələnməsi milli xarakterin maraqlı örnəklərinin mövcud olduğunu aşkarlamağa imkan verir. Bu mənada İsa Hüseynovun (Muğanna) «İdeal», Çingiz Hüseynovun «Məhəmməd, Məmməd, Məmiş», Sabir Əhmədlinin «Toğana» romanlarında yaradılmış xarakterlər problemin müəyyən aspektlərinə aydınlıq gətirilməsi baxımından diqqəti cəlb edir.

İsa Hüseynovun «İdeal» romanında sovet siyasi rejiminin ən sərt dönəmlərindən birində – ötən əsrin əllinci illərində cərəyan edən hadisələr bədii təcəssümünü tapmışdır. Lakin roman yalnız təsvir olunan dövrün mürəkkəbliyi ilə deyil, həmçinin yazıçının məharətlə yaratmış olduğu Sultan Əmirli və Səməd Əmirli obrazları ilə diqqəti cəlb edir. İsa Hüseynov hər iki obrazın daxili-mənəvi simasınını şərtləndirən milli xarakter cizgilərini böyük ustalıqla açmağa, aşkarlamağa çalışmışdır. Yaşadığı dövrün çətinliyi, mürəkkəbliyi Sultan Əmirlinin xarakterində öz dərin izlərini qoymuşdur. Sultan Əmirlinin yaşadığı dövr rus sovet əsarəti tarixinin ən sərt, çətin, mürəkkəb bir dönəmini əhatə edir. Romanda təsvir olunan hadisə və əhvalatlarla yanaşı, qəhrəmanın xarakteri də bütünlüklə bu çətin və keşməkeşli dövrün ictimai-siyasi və mənəvi-əxlaqi ovqatına köklənmişdir. Romanda Azərbaycan xalqının tarixi, soykökü, milli kimliyi ilə bağlı məqamlar özünəməxsus şəkildə bədii təcəssümünü tapmışdır. Məsələn, romanın əsas qəhrəmanlarından olan Səməd Əmirlinin əmisi və idealı həyatın məqsəd və məramını: «Vətənini tanımayan adam özünü də tanımır. Dünyaya niyə gəlib, qayəsi nədi? Heç nə bilmir...»[1] – kimi dərk edir bu şəkildə də ətrafındakılara anlatmağa çalışır. Sultan Əmirlinin tez-tez əslini-kökünü yada salması, ata-babasının Arazın o tayından – Cənubi Azərbaycandan gəldiyini xatırlaması onun öz millətinin təəssübünü çəkdiyini göstərir. Bu, qəhrəmanın milli xarakter cizgilərini səciyyələndirən mühüm amillərdən biridir. Yazıçı epik hadisələrin axarı boyu Sultan Əmirlinin milli xarakter cizgilərini bağlı olduğu mühitlə konflikt və kontrastda

[1] Muğanna İ. İdeal. Bakı: Yazıçı, 1988, s. 431.

canlandırdığından obrazın təbii, real təqdiminə nail olmuşdur. İsa Hüseynov romanda təsvir etdiyi əsas qəhrəmanların daxili-mənəvi dünyasını aşkarlayarkən bütün məqamlarda milli-əxlaqi dəyərlərin qabarıq ifadəsinə çalışır.

Çingiz Hüseynovun «Məhəmməd, Məmməd, Məmiş» romanı milli xarakter probleminin bir sıra qeyri-ənənəvi aspektlərinə aydınlıq gətirilməsi baxımından diqqəti çəkən bədii örnəklərdən biridir. Romanda mürəkkəb süjet, gözlənilməz situasiya və kəskin, barışmaz konfliktlərlə müşayiət olunan hadisə və epizodlar yazıçıya öz qəhrəmanlarının xarakter cizgilərini bənzərsiz ştrixlərlə canlandırmağa imkan vermişdir.

Bütövlükdə «Məhəmməd, Məmməd, Məmiş» romanında Bəxtiyarovlar ailəsinin timsalında dramatik gərginliklə müşayiət olunan və cəmiyyət həyatına nüfuz edən sosial-mənəvi problemlərin mahiyyətinin aşkarlanmasına çalışılır. Lakin maraqlıdır ki, roman şəxsi problemlər kontekstində cərəyan edən hadisələr fonunda davam etsə də, əslində qaldırılan problemlər şəxsi münasibətlər çərçivəsini aşaraq ciddi sosial məzmun kəsb edir. Çingiz Hüseynovun yaratmış olduğu Məmiş obrazı milli xarakteri etibarilə dövrünün böyük cəsarət sahibi kimi diqqəti çəkməkdədir. Məmiş cəngəllik qanunları ilə idarə olunan, insani dəyərlərin ayaqlar altına atıldığı qaranlıq bir cəmiyyətdə yaşayır. O, yaşadığı cəmiyyətin, mənsub olduğu ailənin natəmizliyini, çirkaba bulaşdığını bütün varlığı ilə dərk edir. Yazıçı Məmiş obrazını bütöv şəkildə canlandırmış, onun daxili-mənəvi dünyasının ən gizli, qaranlıq məqamlarına işıq salmağa çalışmışdır. Yazıçı öz qəhrəmanının həm zahiri, həm də daxili portretini yaratmaq məramı izlədiyindən Məmiş bir xarakter kimi digər obrazlardan aşkar şəkildə seçilməkdədir. Romanda Məmiş faciəvi xarakter kimi canlandırılmışdır. Bu faciəvilik yalnız qəhrəmanın ölümlə nəticələnən taleyi ilə bağlı deyildir, o, bütövlükdə xarakter etibarilə faciəvi şəxsiyyətdir. Məmişin «faciəli ölümü ilə müəllif amansız mühitin, eybəcər cəmiyyətin, insana zidd sosial və mənəvi simasını hərtərəfli açmış, onun kimi daxilən təmiz, ləkəsiz insanların məhkumluğunu əsaslandırmışdır».[1]

1960-1980-ci illər nəsrində özünəməxsus üslubu ilə seçilən Sabir Əhmədlinin romanlarında milli xarakterin bir sıra maraqlı, yaddaqalan örnəkləri yaradılmışdır. Yazıçının «Dünyanın arşını», «Yaşıl teatr», «Toğana» və digər romanları bu baxımdan səciyyəvidir.

Sabir Əhmədlinin «Toğana» romanı təsvir olunan xarakterlərin canlılığı, təbiiliyi, real cizgilərlə təqdimi, mənəvi-əxlaqi dəyərlərə bağlılığı ilə diqqəti cəlb edir. Romanda «zahiri süjetdən daxili süjetə keçidin təsvirində bir çox hallarda müəllif səsi ilə qəhrəman səsi bir-birinə qovuşur, müəllif sözünü qəh-

---

[1] □ld□r□mzad□ S. M□asir Az□rbaycan n□srind□ m□n□vi-psixoloji probleml□r (1970-1980-ci ill□r): Filol. elm. nam. ... dissert. avtoreferat□ , Bak□, 1995, s. 16

rəman sözündən ayırd eləmək çətinləşir».[1] Əsərin üslubuna xas olan bu cəhət xarakter yaradılışına da təsirsiz qalmır.

Sabir Əhmədlinin «Toğana» romanında yaratmış olduğu Adil müəllim obrazı milli-mənəvi dəyərlərə bağlılığı ilə seçilir. Romana seçilmiş «Toğana» adı da obrazın milli xarakter cizgilərinin yaradılışında əlverişli məkan anlamında dəyərləndirilməlidir. Öz qəhrəmanını daha çox daxili monoloqlar fonunda təqdim etməyə çalışan yazıçının əsas qayəsi cəmiyyətin varlığına yoluxmuş və get-gedə ona hakim olan eybəcərliyə, əyriliyə, mənəviyyatsızlığa qarşı yönəlmişdir. Adil müəllim mənən saf, təmiz olsa da, mənəvi tarazlığın pozulduğu cəmiyyətin saflaşdırılması uğrunda mübarizə aparmaqda gücsüzdür. Yazıçı onun daxili monoloqunda, digər obrazlarla əlaqə və ünsiyyətində xarakterinin bu cizgilərini əks etdirə bilmişdir.

Təhlillərdən aşkar göründüyü kimi, 1960-1980-ci illərdə qələmə alınmış romanlarda sosial-siyasi proseslər fonunda cərəyan edən hadisə və əhvalatlar milli xarakterin yaranmasında əhəmiyyətli rol oynamışdır. Bu səpkili romanlarda təsvir olunan milli xarakterlər özünəməxsus səciyyəvi keyfiyyətləri ilə seçilməkdə, ənənəvi örnəklərə yeni çalarlar əlavə etməkdədir.

Dissertasiyanın III fəslinin ikinci yarımbölməsi «**Mənəvi-əxlaqi dəyərlər və milli xarakter**» adlanır. 1960-1980-ci illərdə yaranmış müasir mövzulu romanlarda milli xarakterin bədii təcəssümü özünəməxsus səciyyəvi cizgiləri ilə diqqəti cəlb edir. Mənəvi-əxlaqi problemlərə həsr olunmuş romanlarda xüsusilə milli xarakterin təcəssümü məsələsi əsas amillərdən olduğu üçün bu məqamın aparıcılığı özünü aşkar şəkildə büruzə verməkdədir. Məhz buna görə də bəhs olunan dövrdə yaradılan xarakterlərin əksəriyyətinin daxili dünyası mənəvi-əxlaqi konfliktlər fonunda aşkarlanır.

İlyas Əfəndiyevin 1960-cı ildə lirik-psixoloji üslubda qələmə aldığı «Körpüsalanlar» romanında yaratmış olduğu Səriyyə obrazı yalnız onun yaradıcılığında deyil, bütövlükdə Azərbaycan nəsrində ən çox mübahisə obyektinə çevrilən xarakterlərdən biridir. Tənqidçilərin bir qismi Səriyyə obrazını kəskin şəkildə tənqid etmiş, digər bir qismi isə bu və ya digər şəkildə təqdir etməyə çalışmışlar. Lakin Səriyyənin xarakter cizgilərinin təhlilinə hansı prizmadan yanaşılmasına baxmayaraq, onun Azərbaycan nəsrində yeni bir obraz olduğu bu və ya digər şəkildə etiraf olunmuşdur.

Romanda bir sıra maraqlı, yaddaqalan obrazlar yaradılsa da, əsas diqqət Səriyyənin xarakterinə yönəldilmişdir. Romanda əsas mübahisə doğuran Səriyyənin ərli qadın olduğu halda, özünü sərbəst aparması, ailədə ənənəvi ər-arvad münasibətlərinə məhəl qoymamasıdır. Səriyyə obrazını tənqid edənlər məhz onun xarakterindəki bu cəhətlərdən çıxış etmişlər. Lakin bir məqama diqqət yetirilməsinə ehtiyac vardır. Səriyyənin Adillə münasibətlərinin mənəvi

---

[1] İmanov M. Müasir Azərbaycan nəsrində psixologizm, Bakı: Elm, 1991, s. 82.

əsaslar üzərində qurulmadığı onun etiraflarında əksini tapmışdır. Xasiyyətcə sərbəstliyi və daxili azadlığı sevən Səriyyənin xarakter, hərəkət və davranışlarındakı dəyişikliklər onun tale yoluna Qəribcanın çıxmasından sonra daha aşkar şəkildə başlayır. Romanda Səriyyənin xarakteri milli-mənəvi dəyərlərə söykənən əxlaq kodeksi ilə şəxsi səadəti arasındakı kontrast və təzad fonunda aşkarlanır. Mənsub olduğu cəmiyyətin adət-ənənələrinə göz yumaraq özünün şəxsi səadətinə aparan yolu seçdiyi üçün Səriyyə bir xarakter kimi milli-əxlaqi keyfiyyətlərin tam mənada daşıyıcısına çevrilə bilmir. Əksinə, o, azad, sərbəst olduğu, adət-ənənələrin sərt qəliblərini uçura bildiyi üçün diqqəti cəlb edir və mübahisə obyektinə çevrilir.

İlyas Əfəndiyevin «Körpüsalanlar» romanında hadisə və əhvalatlar dastan üslubuna xas olaraq qəhrəmanların dilindən təqdim olunması xarakter yaradıcılığına özünəməxsus çalarlar gətirmişdir. «Folklorun doğma üslubunda: hadisələrin birinci şəxsin dili ilə nəql edilməsi şəxsiyyətin ön plana çəkilməsinə, lirik-psixoloji məqamların qabarıq verilməsinə, aparıcı qəhrəmanların öz taleləri ilə bağlı olan əhvalatlarda yaxından iştirak etmələrinə geniş imkan yaratmışdır».[1] Şübhəsiz ki, romanın koloritini təmin edən bu məqam xarakter yaradıcılığına da təsirsiz qalmamışdır.

İlyas Əfəndiyevin «Dağlar arxasında üç dost» romanında yaratmış olduğu Səlimənin xarakteri də milli-əxlaqi dəyərlərimizə bağlılığı ilə diqqəti cəlb etməkdədir. Qeyd edək ki, Səlimə obrazı yazıçının digər qəhrəmanları, o cümlədən Səriyyə qədər mübahisə obyektinə çevrilməsə də, onun xarakter cizgiləri milli-mənəvi dəyərlərin bəzi spesifik çalarlarını əks etdirir. Bu isə yazıçının bütün məqamlarda əxlaqi dəyərlərimizə bağlılığını şərtləndirən amillərdən biri kimi maraq doğurur. «Dağlar arxasında üç dost» romanında təsvir olunan hadisə və əhvalatlar real, təbii cizgilərlə təcəssümünü tapmadığından bu amil xarakter yaradıcılığına da təsirsiz qalmamışdır.

İlyas Əfəndiyevin «Sarıköynəklə Valehin nağılı» romanı milli xarakterin səciyyəvi cizgilərini özündə təcəssüm etdirən bira sıra qəhrəmanlarla diqqəti çəkməkdədir. Romanın folklordan qaynaqlanan motivlərlə zənginliyi, nağıl-dastan üslubuna söykənilərək qələmə alınması şübhəsiz ki, əsərdə təsvir olunan qəhrəmanların da daxili portretinin yaradılmasına təsirsiz qalmamışdır. Əsərdə «folklor-nağıl stixiyası aparıcı qəhrəmanları anadan olandan izləyir və çətin, sarsıntılı yollardan keçirərək uğurlu taleyə qovuşdurur».[2] Romanda istər Sarıköynək, istərsə də Valeh obrazları xalqımıza məxsus milli-mənəvi dəyərlərin ən mühüm xüsusiyyətlərini öz xarakterlərində daşıyırlar. Bu aspekt istər onların qarşılıqlı münasibətlərində, istərsə də ictimai fəaliyyətlərində aşkar şəkildə özünü büruzə verir.

---

[1] Ənvəroğlu H. Azərbaycan ədəbiyyatının yaradıcılıq problemləri. Bakı: Elm, 2004, s. 456.
[2] Ənvəroğlu H. Azərbaycan ədəbiyyatının yaradıcılıq problemləri. Bakı: Elm, 2004, s. 457.

Sabir Azərinin «Dalanda» romanı da milli xarakter problemi ilə bağlı müəyyən məsələlərə diqqətin yönəldilməsi baxımından səciyyəvi əsərlərdən biridir. Romanın ədəbi tənqid tərəfindən müzakirə obyektinə çevrilməsinin əsas səbəblərindən biri burada yaradılan xarakterlərin daxili-mənəvi siması və dünyabaxışları ilə şərtlənir. Romanda müəllifin yaratmış olduğu Qafar, Fəridə, Gülsafa və digər qəhrəmanlar daxili-mənəvi dünyasının hərtərəfli şəkildə, yaddaqalan boyalarla aşkarlandığı xarakterlərdir. Yazıçı romanın süjet xəttini əsas etibarilə Qafarın taleyi ilə bağlı hadisə və əhvalatlar üzərində qurmağa çalışmışdır. Qafarın faciəsi sözün əsl mənasında milli-əxlaqi dəyərlərdən ayrı düşməsindədir. Onun həyatda qarşılaşdığı bütün faciələr istisnasız olaraq burdan başlayır.

«Dalanda» romanında Qafarla Fəridənin münasibətləri fonunda cəmiyyətə hakim olan iki fərqli əxlaqi düşüncənin məğzi, mahiyyəti aşkarlanmışdır. Belə ki, Qafar milli ruhun daşıyıcısı olan, ancaq mövcud cəmiyyətdə get-gedə sıradan çıxaraq zəifləyən, Fəridə isə yeni yaranan, lakin milli dəyərlərdən uzaq olan əxlaqi dəyərlərin təmsilçisidir. Romanda Qafarı ömrü boyu müşayiət edən daxili-mənəvi əzablar real cizgilərlə təsvir olunmuşdur. O, bütün varlığı ilə çalışsa da, ruhən, mənən bağlı olduğu, milli-əxlaqi dəyərlərdən qaynaqlanan həyat prinsiplərini öz ailəsinin yaşam tərzinə çevirə bilmir. Romanda Qafarın faciəsi yalnız ailə çərçivəsi ilə məhdudlaşmır, eyni zamanda yaşadığı cəmiyyətin sosial mühiti ilə bağlanır. Bu isə yazıçıya öz qəhrəmanının milli xarakter cizgilərini daha geniş müstəvidə əks etdirmək imkanı verir.

Romanda milli-əxlaqi dəyərlərə bağlılıq daha çox Gülsafa qarının xarakter cizgilərinin təsviri prosesində gerçəkləşir, onun bütün hərəkət və davranışları milli kökə, adət-ənənələrə, mənəvi yaddaşa bağlılığın üstün keyfiyyətlərini qabartmaq məramına xidmət edir.

Milli xarakterin maraqlı, özünəməxsus örnəklərindən birinə Anarın «Beşmərtəbəli evin altıncı mərtəbəsi» romanında təsadüf olunmaqdadır. Yazıçı romanda özünün baş qəhrəmanlarından biri olan Zaurun timsalında yeni dövrdə milli xarakterin bəzi səciyyəvi cizgilərini əks etdirməyə çalışmışdır. Romanda Zaur bütünlüklə müsbət prizmadan təqdim olunmamışdır. Yazıçı onun xarakterini müxtəlif situasiyalarda, qarşılaşdığı fərqli hadisə və əhvalatlar kontekstində aşkarlamağa çalışmışdır. Zaur Təhminəni bütün varlığı ilə sevir və onunla əlaqələrini kəsməyi təsəvvürünə belə gətirmir. Lakin Təhminə Zaurun yaşadığı cəmiyyətin ehkamları ilə uyuşmayan, bu cəmiyyətdə yaşamağa «haqqı olmayan» fərdlər sırasındadır. Zaur sevgisi ilə cəmiyyətin ehkamları arasında tərəddüd edir. Zaurun duyğuları valideynlərinin inadlı təkidi ilə cəmiyyətin ehkamlarına təslim olsa da, lakin bu, ona xoşbəxtlik gətirmir. Romanın süjetini təşkil edən hadisə və əhvalatlar boyu hisslə idrak arasında vurnuxan Zaurun hərəkətləri əxlaqi və qeyri-əxlaqi dəyərlərə münasibətdə sınağa çəkilir.

Romanda diqqəti çəkən xarakterlərdən biri də Təhminədir. Ümumiyyətlə, İlyas Əfəndiyevin «Körpüsalanlar» romanındakı Səriyyə obrazından sonra məhz Anarın yaratmış olduğu Təhminə surəti ciddi ədəbi müzakirə və mübahisələrə səbəb olmuş, haqqında bu və ya digər şəkildə mülahizələr söylənilmişdir. Təhminənin özünəməxsus bir «dünya»sı vardır və bu «dünya»nın dəyərlərindən kənarda olan heç nə ilə barışmaq istəmir. Təhminə yalnız öz dünyasına qapılan zaman xoşbəxtdir, yaşadığı cəmiyyətin əxlaqi dəyərləri ilə onun xoşbəxt olması mümkün deyildir. Təhminə öz düşüncələri, hərəkət və davranışları ilə bütün ətrafındakılara bildirmək istəyir ki, dünyada insanın daxili-mənəvi azadlığından, «qəlbin həqiqəti»ndən üstün heç bir şey yoxdur və xoşbəxtlik deyilən məfhum da elə bu zəmində dərk olunmalıdır. Lakin bununla belə Təhminə bağlı olduğu mühitin daxili təbiətindən, ifrat mühafizəkarlığından qaynaqlanan problemlərdən xilas ola bilmir.

Təhlil olunan romanlarda yaradılan milli xaraktelər milli-mənəvi problemlər kontekstində xarakter yaradıcılığının səciyyəvi cizgilərini bu və ya digər dərəcədə əks etdirir. Lakin təhlillərdən aydın göründüyü kimi, milli xarakterin təcəssümü müasir mövzulu romanlarla müqayisədə tarixi romanlarda daha ciddi şəkildə bədii ifadəsini tapmışdır. Başqa sözlə, yaradılmış milli xarakterlər tarixi romanlarda daha canlı və təbii təsir bağışlamaqdadır.

Dissertasiyanın «Nəticə» hissəsində ayrı-ayrı fəsillərdə irəli sürülən fikir və mülahizələr ümumiləşdirilmişdir.

**Mövzu ilə bağlı müəllifin aşağıdakı əsərləri dərc olunmuşdur:**

1. Fərman Eyvazlının «Qaçaq Kərəm» romanında milli xarakterin təcəssümü // Dil və ədəbiyyat (Beynəlxalq elmi-nəzəri jurnal), Bakı, 2008, № 5 (56), s.155-157
2. Azərbaycan romanlarında ədəbi şəxsiyyət və milli xarakter // Filologiya məsələləri, Bakı, 2008, № 8, s.445-454
3. Azərbaycan nəsrində sosial-siyasi proseslər // Filologiya məsələləri, Bakı, 2008, № 9, .s.532-537
4. Историческая тема и национальный характер в азербайджанских романах 1960-80-х годов XX века // Журнал научных публикаций аспирантов и докторантов, Курск, 2009, № 2, февраль, s.113-115
5. İ.Şıxlının «Dəli Kür» romanında milli xarakter tarixi-ictimai proses kontekstində // Elmi əsərlər (ədəbiyyatşünaslıq, dilçilik, sənətşünaslıq və pedaqogika seriyası). Naxçıvan: NDU – «Qeyrət», 2009, s.146-150
6. Azərbaycan nəsrində Şah İsmayıl Xətai obrazı və milli xarakter problemi (Əzizə Cəfərzadənin «Bakı-1501» romanı əsasında) //Gəncə Dövlət Universitetinin Elmi Xəbərləri, № 3, Gəncə, 2014, s. 85-89
7. Историко-политическая личность и проблема национального характера //Мова и култура, Киевский национальный университет им. Т.Шевченко, № 2, Киев, 2015.

**С.Х.Софиева**

## Проблема художественного воплощения национального характера в азербайджанском романе XX века (1960-1980-е годы)

### Резюме

Диссертационная работа состоит из «Введения», трех глав, «Заключения» и списка использованной литературы.

Во «Введении» обосновываются актуальность темы, научная новизна, теоретическая и практическая значимость работы; даются сведения об объекте, целях, задачах, источниках и методах исследования, об апробации и структуре диисертации.

В I главе работы под названием «Проблема исторической темы и национальный характер» романы на историческую тему, созданные в 1960-1980-е годы, исследуются в контексте создания национального характера, а также на материале привлеченных к исследованию художественных образцов прослеживаются отдельные направления проблемы. Эта глава состоит из двух параграфов: в первом параграфе «Национальный характер в контексте общественно-исторического процесса» исследуются романы И.Шыхлы «Кура неукротимая», М.Ибрагимова «Парвана», И.Эфендиева «Не оглядывайся, старик», М.Сулейманлы «Переселение», Эльчина «Махмуд и Марьям», Ю.Самедоглу «День казни», а во втором параграфе «Гачагское движение и проблема национального характера» – романы Дж.Баргушада «Оседлав Бозата» и Ф.Эйвазлы «Гачаг Керем».

Во II главе «Культ литературной и историко-политической личности» объектом исследования являются романы на современную тематику, созданные в указанный период. Эта глава состоит из двух параграфов. В первом параграфе под названием «Литературная личность и создание национального характера» анализируются романы А.Джафарзаде «Вернись на родину», «Есть в этом мире голос мой», «Вспоминай меня», И.Гусейнова «Судный день», А.Ниджата «Гянджинский мудрец», Ч.Гусейнова «Завоевание Фатали», М.Исмаилова «Хагани». Во втором параграфе «Историко-политическая личность и проблема национального характера» объектом исследования являются романы, посвященные жизни и борьбе историко-политической личности: А.Джафарзаде «Баку-1501», А.Ниджата «Кызылбаши», Ф.Керимзаде «Мост Худаферин» и «Чалдыранская битва», Дж.Баргушада «Обнаженный меч».

В III главе диссертации «Национальный характер в социально-политическом и морально-психологическом контексте» исследуются романы на современную тематику. Эта глава так же состоит из двух параграфов. В первом параграфе «Эпическое воплощение социально-политической жизни и национальный характер» в контексте создания национального характера рассматриваются романы И.Гусейнова (Муганны) «Идеал», Ч.Гусейнова «Магомет, Мамед, Мамиш», С.Ахмеда «Тогана». Во втором параграфе «Нравственно-духовные ценности и национальный характер» анализируются романы И.Эфендиева «Строители мостов» и «Сказка о Валехе и Сарыкойнек», Ч Гусейнова «Магомед, Мамемд, Мамыш», С.Азера «В тупике».

В заключительной части диссертации обобщаются основные научные выводы и суждения, выдвинутые в ходе исследования.

**S.Kh.Sofiyeva**

## Problem of artistic realisation of national character in the 20th century Azerbaijani novel (1960-1980th years)

### Summary

The dissertation consists of “Introduction”, three chapters, “Conclusion” and bibliography.

In “Introduction” are substantiated the urgency of the subject, the scientific novelty, theoretical and practical significance of the work; is given information about the object, purpose, tasks, sources and methods of the research, about the appraisal and structure of the dissertation.

In chapter I of the work under the name “The problem of a historical theme and national character” are investigated novels on the historical theme, created in 1960-1980th years, in a context of creation of national character, and also on a material of the art are traced samples involved in research separate directions of a problem. This chapter consists of two paragraphs: in the first paragraph “National character in a socio-historical process context” are investigated I.Shykhly’s novels “The unrestrained Kura”, by M.Ibrahimov’s “Parvana”, I.Efendiyev’s “Don’t look back, the old man”, M.Suleymanly "Resettlement", Elchin’s “Mahmud and Maryam”, Y.Samedoghlu “The execution day”, and in the second paragraph “Gachag movement and a problem of national character” – novels of J.Bargushad “Having saddled Bozat” and F.Eyvazly “Gachag Kerem”.

In chapter II “Cult of the literary and istoriko-political person” object of research are novels on the modern subjects, created in the specified period. This chapter consists of two paragraphs. In the first paragraph under the name “The literary person and creation of national character” are analysed A.Jafarzadeh’s novels “Return to home”, “Are in this world my voice”, “Remember me”, I.Gusejnov’s “Doomsday”, A.Nijat’s “The wise man from Gandja”, C.Huseynov’s “The Fatali’s gain”, M.Ismailov’s “Xagani”. In the second paragraph, “The historiko-political person and a problem of national character” object of research are the novels devoted to a life and struggle of the historical-political person: A.Jafarzadeh’s "Baku-1501", A.Nidzhat’s

“Kizilbashes’, F.Kerimzadeh’s “Hudaferin bridge” and “Chaldyran fight”, J.Bargushad’s “The bared sword”.

In chapter III of the dissertation, “National character in a sociopolitical and moral and psychological context” are investigated novels on modern subjects. This chapter as consists of two paragraphs. In the first paragraph “The epic embodiment of a sociopolitical life and national character” in a context of creation of national character are considered I.Husejnov’s (Mughanna) novels “Ideal”, Ch.Huseynov’s “Magomed, Mamed, Mamish”, S.Ahmed’s “Toghana”. In the second paragraph “The moral-cultural wealth also national character” are analysed I.Efendiyev’s novels “Builders of bridges” and “The fairy tale about Valeh and Sarikoynek”, Ch.Huseynov’s “Magomed, Mamed, Mamish”, by S.Azer’s “At deadlock”.

In “Conclusion” are generalized the main results of the research.

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ

*На правах рукописи*

САМИРА ХАЛЕДДИН гызы СОФИЕВА

# ПРОБЛЕМА ХУДОЖЕСТВЕННОГО ВОПЛОЩЕНИЯ НАЦИОНАЛЬНОГО ХАРАКТЕРА В АЗЕРБАЙДЖАНСКОМ РОМАНЕ XX века (1960-1980-е годы)

**5716.01 – Азербайджанская литература**

# А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени доктора философии по филологии**

БАКУ – 2015